# İlk çərşənbəmiz



Fəsillərin gözəllik mücəssəməsi bahardır. Bahar insanlara müsbət aura bəxş edir. Bu isə təbiətin öz libasını dəyişərək həyat rəmzi olan yaşıllığa bürünməsi ilə başlayır. Torpaq oyandıqca təbiət gözəlliklərə qərq olur. Bu isə insanların həyat və yaşamaq istəyini daha da artırır. İlin baharını qarşılamaq üçün çərşənbələr başlayır. Hər çərşənbə baharın gəlişini təsdiqləyir. Baharın 4 çərşənbəsi var. Su, Od, Yel və Torpaq. Su çərşənbəsi ilk çərşənbə sayılır. Alimlər təstiq etmişlər ki, ilk canlı orqanizm suda yaranmışdır. Buna görə də həyatın mənası, onun nüvəsi su sayılır. Bu da vacib məqamdır.

Su çərşənbəsini Yalançı çərşənbə, əzəl çərşənbə, Sular Novruzu da adlandırırlar. Su çərşənbəsi suya tapınma inamı ilə bağlıdır. Su çərşənbəsində su mənbələri təzələnir, arxlar qaydaya salınır, su hövzələrində abadlıq işləri görülür, su ilə bağlı müxtəlif şənliklər keçirilir.Hələ gün doğmamışdan insanlar su üstünə gedir, əl üzünü yuyur, yaraların yarasına su çiləyirlər.

Xalqın inamına görə Su çərşənbəsi günü "təzə su" dan keçənlər, azarını-bezarını ona verənlər il boyu xəstəlikərdən uzaq olarlar.

27 fevral-ilimizin ilk- Su çərşənbəsi günüdür. Su çərşənbəniz mübarək!

**Afət İSRAYILOVA.**

# Peyvəndlənmə effektiv profilaktika üsuludur

Rayon icra hakimiyyətinin və rayon mərkəzi xəstəxanasının təşkilatçılığı ilə "Peyvəndlənmə - qızılca və digər infeksion xəstəliklərə qarşı effektiv profilaktika üsuludur" mövzusunda maarifləndirici tədbir keçirilib. Rayon icra hakimiyyətinin, RMX PHŞ-nin, GEM-in, rayon ağsaqqallar şurasının nümayəndələrinin, rayonun ümumtəhsil və məktəbəqədər təhsil müəssisələrinin rəhbərlərinin iştirak etdiyi tədbirdə çıxış edənlər peyvəndlənməmiş şəxslərdə qızılca xəstəliyinin ağırlaşmalara və hətta qalıcı fəsadlara səbəb ola biləcəyini qeyd edərək, bir sıra ağır respirator xəstəliklərin vaksinasiyasının uşaqlıq dövründə Milli Peyvənd Proqramına əsasən ilkin səhiyyə xidməti təşkil edən müəssisələrdə aparılmalı olduğunu və yoluxmanın qarşısını almaq məqsədilə peyvəndləmənin vacibliyini bildirmiş, mövcud vəziyyətlə əlaqədar maarifləndirici bukletlər paylanılmışdır. Tədbir diskussiya şəklində davam etmişdir.





# Bələdiyyə əmlakı, istifadə, bələdiyyələrin vəzifələri

(Əvvəli 7-ci səhifədə).

Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Komitəsinə ərizə ilə müraciət edirlər; ərizəyə bələdiyyə qurumunun statusunu təsdiq edən sənədlər əlavə olunmalıdır.

2.Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Komitəsi daxil olmuş müraciətlərin əsaslığını yoxlayır.

3.Müraciətdə göstərilən dövlət əmlakının, o cümlədən ümumi istifadə obyektlərinin bələdiyyə mülkiyyətinə verilməsi nəzərdə tutulmuşdursa, Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Komitəsi tərəfindən 10 gün ərzində müvafiq akt tərtib edilir.

Məlum olduğu kimi, bələdiyyə mülkiyyətinin strukturu və xarakteri, bir qayda olaraq, müvafiq hüquqi sənədlərlə (bələdiyyə qanunları) təsbit olunur. Bələdiyyə mülkiyyəti hüququ bələdiyyə təşkilatına, daha dəqiq desək, şəhər və ya kənd yaşayış məntəqələrinə məxsusdur. Həqiqətdə isə bu hüququ bələdiyyə təşkilatı adından yerli özünüidarə orqanı həyata keçirir. Bələdiyyə mülkiyyətinin strukturuna - yerli büdcə vəsaitləri, qeyri-büdcə fondları, yerli özünüidarəetmə orqanına məxsus olan əmlak, bələdiyyə mülkiyyətinə daxil olan torpaq və digər təbii resurslar, bələdiyyə müəssisə və təşkilatları, bələdiyyə yaşayış fondları və qeyri-yaşayış sahələri, bələdiyyə təhsil müəssisələri, sağlamlıq, mədəniyyət və idman mərkəzləri, digər daşınan və daşınmaz əmlak daxildir.

«Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikası Qanununun 33-cü maddəsinə əsasən birmənalı şəkildə demək olar ki, respublikamızda mövcud olan bələdiyyə mülkiyyətinin tərkibinə yerli vergilər və ödənişlər hesabına formalaşan yerli büdcənin vəsaiti, bələdiyyənin büdcədənkənar fondları, bələdiyyə əmlakı, habelə bələdiyyə torpaqları, bələdiyyə müəssisə və təşkilatları, bələdiyyə mənzil fondları və qeyri-yaşayış binaları, dövlət və xüsusi mülkiyyətdə olmayan yollar, bələdiyyə təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələri, digər daşınar və daşınmaz əmlak daxildir.

Azərbaycan Respublikası Konstitusiyasının 144-cü maddəsinin 6-cı bəndində bələdiyyə mülkiyyətinə sahiblik, ondan istifadə və onun barəsində sərəncamvermə bələdiyyələrin müstəsna səlahiyyəti kimi təsbit olunur. Eyni zamanda, «Bələdiyyələrin statusu haqqında» Azərbaycan Respublikası Qanununun 32-ci maddəsində göstərilir ki, bələdiyyə öz əmlakına dair mülkiyyətçi hüququna malikdir, yəni sərbəst olaraq əmlakına sahiblik edir, ondan isifadə edir və ona sərəncam verir.

Bələdiyyələr öz mülkiyyətlərindən istifadə zamanı iqtisadi səmərə qazanma hüququndan məhrum olmamalıdır, əksinə, bələdiyyələr bu səmərəni, məhz həmin sistemi düşünülmüş şəkildə idarə edərək, qazanmalıdır.

Bələdiyyə mülkiyyətinin idarə olunması - mülkiyyətçinin bələdiyyə əmlakının əsas keyfiyyətlərinin qorunub saxlanmasına və onun artımına, eləcə də bələdiyyə mülkiyyəti obyektlərinə məqsədyönlü təsir sayəsində onun bələdiyyə əhalisinin maraqları çərçivəsində istifadəsinə və nəhayət, ictimai dəyərləri nəzərə almaqla, qarşıya qoyulan məqsədlərə nail olunmasına istiqamətlənən fəaliyyəti kimi baxıla bilər.

**Marif MAHMUDOV,**
**Şəki regional ədliyyə idarəsinin baş məsləhətçisi v.i.e.**
**I dərəcəli ədliyyə qulluqçusu.**

# Bilirsinizmi?

Miladi təqvimi ilə ilin ikinci ayı fevraldır. Bu ay 28 gündən ibarətdir, bəzən (4 ildən) uzun illərdə 29 gün olur. Ancaq ilin ən qısa ayı sayılır. Nömrəsi 4-ə bölünən illərdə fevral ayı 29 gün olur.

* * *

2 fevral - Gənclər Günü 1996-cı ildə ümummilli lider Heydər Əliyevin sərəncamı ilə təsdiq olunmuşdur. Gənclər günü MDB məkanında və Şərqi Avropa ölkələri arasında ilk dəfə Azərbaycanda qeyd olunmuşdur. Dünyada isə bizdən 3 il sonra - 1999-cu ildə BMT-nin qərarı ilə avqustun 12-si gənclər günü elan edilmişdir.

* * *

14 fevral - Valentin Günü. Roma yaxınlığında yerləşən Terni kilsəsinin ruhanisi Valentin Roma Legionerlərinə evlənmək qadağan olunmasına baxmayaraq gizli şəkildə sevənlərə nikah kəsərdi. Buna görə də onu həbsə məhkum etmişdilər.

Bir rəvayətə görə isə Valentin məhbuslardan birinin qızını sevmişdir. Edam olunma ərəfəsində o qıza məktub yazmış və məktuba "Sənin Valentinin" imzası qoymuşdur. Valentin adı da məhz buradan götürülmüşdür.

* * *

21 fevral- Beynəlxalq Ana Dili günüdür.

* * *

26 fevral - Xocalı faciəsi.

* * *

27 fevral - Su çərşənbəsi.

**Gülnar EYVAZOVA,**
**Qəbələ şəhəri.**




QƏBƏLƏ

qəzetinə

2024-cü ilin birinci yarısı üçün abunə yazılışı davam edir.

Yarımillik abunə qiyməti 20 manatdır.

*Qəzetimizə «Kapitalbank»ın Qəbələ filialında abunə yazılmaq olar.*

*Hesab № AZ36AİİB 33080019444900218149. VÖEN 4400103601.*

Redaksiyanın ünvanı: Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226 (rayon icra hakimiyyətinin inzibati binası, I mərtəbə).

Telefonlar: (024)205-19-14, (024)205-15-56, mob. (050) 318-90-24.


# İtmişdir

Azərbaycan Respublikası İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidmətinin tabeliyində Daşınmaz Əmlakın Dövlət Kadastrı və Reyestri Publik Hüquqi Şəxsinin 9 saylı Qəbələ Ərazi İdarəsi tərəfindən **Tağıyev Zamir Elşad oğluna** verilmiş reyestr nömrəsi 406013011807 olan, BNə 194362 nömrəli **torpaq sahəsinin planı və ölçüsü** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon sakinləri **Səmədova Damla Namiq qızına** məxsus AZE 12695466 nömrəli **şəxsiyyət vəsiqəsi, Səmədov Kənan Namiq oğluna** məxsus AA 0982587 nömrəli **şəxsiyyət vəsiqəsi, Səmədova Elminaz Eynulla qızına** məxsus AA 5746785 nömrəli **şəxsiyyət vəsiqəsi** itdiyi üçün etibarsız sayılır.

Qəbələ rayon sakini **Səmədova Elminaz Eynulla qızına** məxsus BD 014160 nömrəli **sürücülük vəsiqəsi** və 32 BH 897 qeydiyyat nişanlı minik avtomobilinin **qeydiyyat şəhadətnaməsi** itdiyi üçün etibarsız sayılır.


Redaktor
Azad Məmmədov.

*TƏSİSÇİ:*
Redaksiyanın jurnalist kollektivi.

*Redaksiya ilə müəllifin mövqeyi fərqli ola bilər*

ÜNVANIMIZ:
AZ 3600, Qəbələ şəhəri, Heydər Əliyev prospekti, 226.
Redaktor: (024) 205-19-14.
Ümumi: (024) 205-15-56.
e-mail: gabalanews@mail.ru

Elanların və reklamların mətnlərinə görə redaksiya məsuliyyət daşımır.

Azərbaycan Respublikası Mətbuat və İnformasiya Nazirliyində qeyddən keçmişdir.
Lisenziya AV № 022611

«Kapitalbank»ın Qəbələ filialında hesab № Az36AİİB 33080019444900218149
VÖEN: 4400103601

«Qəbələ» qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş və Bakı şəhərində "Azərmedia" MMC-nin mətbəəsində ofset üsulu ilə çap edilmişdir.
*Dizayner Rais Rəşidov*
Oxucu məktublarına cavab verilmir və əlyazmaları geri qaytarılmır.
*Tiraj 1170*